# Peyvəndin yaratdığı immunitet və qorunma tədbirləri yoluxmanı azaldacaq

***Azərbaycan COVID–19 pandemiyası ilə mübarizədə qlobal səyləri səfərbər edən ilk ölkələrdəndir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının zirvə toplantılarının, eləcə də, BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının təşkili, Ümumdünya Səhiyyə Təşkilatına edilən ianələr Azərbaycanın qlobal əhəmiyyətli problemlərin həllində üzərinə məsuliyyət götürməyə hazır olan güclü dövlət olduğunu təsdiqlədi. Azərbaycan vaksinlərin ədalətli bölgüsü və əlçatanlığı məqsədilə yaradılmış COVAX beynəlxalq təşəbbüsünə ilk qoşulan və dəstək verən ölkələrdən biri oldu.***



Prezident İlham Əliyev öz çıxışlarında vaksinlərin ədalətli və bərabər bölgüsü ilə bağlı fikirlərini bölüşüb və bu istiqamətdə birgə səylərin önəmini qeyd edib. Azərbaycan lideri dəfələrlə bəyan edib ki, bəzi dövlətlər öz tələbatlarından bir neçə dəfə çox vaksin alır və nəticədə, inkişaf etməkdə olan dövlətlər vaksin çatışmazlığı problemi ilə üzləşir. Vaksinlərin ədalətli bölgüsü ilə əlaqədar səylərin davamı olaraq ölkəmizin təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli və bərabər bölgüsü ilə bağlı qətnamə Qoşulmama Hərəkatı adından irəli sürülüb və 2021-ci il martın 23-də qəbul edilib.

Pandemiyanın bitməsi üçün kütləvi peyvəndlənmə vacibdir. Mütəxəssislərin fikrincə, kollektiv immunitetin yaranması üçün ölkə əhalisinin 60–70 faizi peyvənd olunmalıdır. Göründüyü kimi, Azərbaycan bu hədəfə çatmağa çox yaxındır. İndiyədək ölkəmizdə koronavirus infeksiyasına qarşı vurulan vaksin dozalarının sayı 1 milyon 500 mini ötüb. Hazırda ölkəmizdə vaksinasiya prosesi davam edir. Həmçinin gündəlik yoluxma sayı da azalır. Mütəxəssislər müşahidələrinə əsaslanıb bildirirlər ki, birinci, hətta ikinci peyvənd dozasını vurduranlar arasında da COVID–19-a yoluxanlar var. Onlar, həmçinin qeyd edirlər ki, təbii olaraq peyvənddən sonra virusdan qorunmaq lazımdırmı, yoluxan zaman ikinci dozanı qəbul etmək olarmı, ümumiyyətlə, peyvəndin birinci dozasını vurduranlar özlərini virusdan necə qorumalıdır və s. kimi suallar meydana çıxır.

Binəqədi rayonundakı 27 saylı şəhər poliklinikasının həkimi Aygün Kərimova bildirib ki, peyvəndin ilk dozasını qəbul edəndən sonra orqanizmdə virusa qarşı dərhal müdafiə yaranmır. Koronavirusa qarşı vaksinlərin hamısı bir neçə həftə fasilə verməklə, iki dozada qəbul edilməsini tələb edir. Dozalar arasındakı müddətdə yoluxma riski yüksək olaraq qalır. İlk dozanı qəbul etdikdən yalnız 2 həftə sonra müdafiə sistemi yaranmağa başlayır, peyvənddən maksimal effekt isə ikinci dozadan sonra meydana gəlir. İmmuniteti formalaşdırmaq üçün orqanizmə müəyyən qədər vaxt lazım olduğundan, həmin dövrdə koronavirusa qarşı təhlükəsizlik qaydalarına tam və ciddi surətdə riayət etmək mütləqdir. İlkin dozadan sonra koronavirusa yoluxmaya şübhə varsa, mütləq testdən keçmək lazımdır. Bəzən peyvənddən sonra yorğunluq və qızdırma kimi əlamətlər olur, bunlar COVID–19-un əlamətlərinə oxşar olduğu üçün düzgün nəticəni yalnız test vasitəsilə əldə etmək olar. Həkim qeyd edib ki, əgər testin cavabı pozitiv çıxarsa, deməli, peyvəndin birinci dozasından sonra COVID–19 xəstəliyinə yoluxma baş verib: “Dərhal özünü ətrafdakılardan təcrid edərək həkimə müraciət olunmalı və peyvəndin ilk dozasının qəbul edildiyi barədə məlumat verilməlidir. COVID–19 xəstəliyinə yoluxandan sonra peyvəndin ikinci dozasının vurulmasına ehtiyac qalmır, yaxud ikinci doza uzun müddətə təxirə salınır. Əgər xəstəliyə qarşı peyvəndin birinci dozası vurulduqdan sonra kəskin respirator xəstəlik keçirilibsə, həmin xəstəlikdən sağalandan sonra peyvəndin ikinci dozasını vurdurmaq olar”.

Mütəxəssislər bildirirlər ki, peyvəndin ilk dozasını vurduranlar koronavirusa yoluxanda vaksinasiyadan keçməmiş xəstələr kimi müalicə olunurlar, həmçinin onlar da gigiyenik qaydalara riayət etməli və təcrid olunmalıdırlar. Tibbi maska, karantin və sosial məsafə prinsipləri yenə də riayət edilməli ən vacib məsələlər olaraq qalır. Birinci dozadan sonra orqanizmdə heç bir dəyişiklik olmazsa, ikinci dozanı 28 gündən sonra vurdurmaq olar. Birinci və ikinci dozalar arasında fasilə obyektiv və ya subyektiv səbəblər üzündən 1 aya qədər uzadıla bilər.

COVID–19 infeksiyasına qarşı vaksinasiya o vaxt təsirli olacaq ki, əhalinin böyük əksəriyyəti əhatə olunsun. Ümumdünya Səhiyyə Təşkilatı belə bir rəqəmi açıqlamır. Sadəcə olaraq, ayrı-ayrı mütəxəssislər həmin infeksiyanın yayılma sürətini əsas götürərək əvvəllər əhalinin 60-70 faizini, yoluxuculuğu daha yüksək olan Britaniya ştammına görə isə əhalinin 80 faizini immunlaşdırdıqdan və onlarda immuncavab formalaşdırdıqdan sonra effekt görməyin mümkünlüyünü qeyd edirlər. Azərbaycanda təxminən 16 milyon dozaya qədər peyvənd vurulmalıdır. İlk günlərlə müqayisədə, hazırda peyvənd olunanların gündəlik sayında artım var. Bu, əhali arasında aparılan maarifləndirmə işinin nəticəsidir. Amma yenə də pandemiyanın əvvəllərindən dönə-dönə qeyd edilən standart qorunma vasitələrinə əməl olunmalıdır.

Səhiyyə nazirliyinin baş infeksionisti deyib ki, peyvənd olunmuş şəxs bilməlidir ki, ikinci dozanı aldıqdan bir müddət sonra onun qanında qoruyucu antitel əmələ gəlir: “Bu müddət fərqlidir. Çünki, immun sistem fərdi reaksiya verir. Yaşlılarda immun sistem zəif olduğuna görə, immunitetin əmələ gəlməsi gecikə bilər. Elə insanlar var ki, peyvənd olunsalar belə bu həssaslıq saxlanılır. Belə bir ehtimal var ki, mutasiya olunmuş variantlar qandakı anticisimlərdən yayına bilər. Ona görə də hər kəsin öz həyatını maska geyinmək, gigiyena qaydalarına əməl etmək, məsafə saxlamaqla davam etdirməsi tövsiyə olunur. Peyvənd olunsaq da, hər ehtimala qarşı deyilənlərə əməl etməyimiz məsləhət görülür. Belə olan halda bir tərəfdən peyvəndin yaratdığı immunitet, digər yandan isə qorunma tədbirləri yoluxmanı minimallaşdırmağa səbəb ola bilər”.

Ölkədə peyvənd olunanların sayının artması, xəstəliyə yoluxanların sayının azalmasına görə heç kəs arxayınlaşmamalıdır. O zaman rahat olacağıq ki, yoluxma hallarının sayı kəskin azalacaq və epidemik proses qırılacaq. Buna hələ vaxt var. Bunun üçün əhalinin böyük əksəriyyəti peyvənd olunmalıdır. Hazırda peyvəndləmə prosesində iştiraka tərəddüd edən, aktiv olmayanlar bəzi xarici ölkələrin timsalında vaksinin effektini gördükdən sonra peyvəndləmənin sürəti bir qədər də artacaq. O zaman ölkəmizdə də arzuolunan nəticə əldə ediləcək.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 2 may.- S.6.